***UOT-811.512.162***
***Səhifə: 73-77***
*https://doi.org/10.59849/2663-8967.2023.1.73*

***Sədaqət Cumayeva***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu,***
***filologiya üzrə fəlsəfə doktoru***
***sedaqet.aytacli@mail.ru***

# AZƏRBAYCAN DİLÇİLİYİNİN MÜXTƏLİF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Fonologiya, morfologiya, leksika, sintaksis, fonoloji sistem*
***Key words:*** *Фонология, морфология, лексика, синтаксис, фонологическая система*
***Ключевые слова:*** *Phonology, morphology, vocabulary, syntax, phonological system*

Fonologiya dil sisteminin birincisi və dilçilik elminin sahələrindən biri olmaq etibarilə dilin fonoloji sistemi ilə məşğul olur. O, nitq səslərini və morfemlərin səs cildini fərqləndirən bir vasitə kimi öyrənir, səslərin, səs birləşmələrinin və prosodik vasitələrin semioloji relevantlığını və funksional xüsusiyyətlərini tədqiq edir. Fonologiya struktur dilçilik metodlarını dil hadisələrinə tətbiq edən ilk dilçilik şöbəsidir. Fonologiyanın vahidi fonemdir. Fonem dilin ən kiçik vahidi olub, müəyyən fərqləndirici əlamətlər məcmusudur. O, söz və morfemlərin səs cildini fərqləndirməyə xidmət edir. Fonem dildə seqment, fonem və superseqment şəklində təzahür edir. Birinciyə linqvistik vəzifəli səslər (saitlər və samitlər), ikinciyə isə vurğu, intonasiya kimi fonoloji vahidlər daxildir. Müasir dövrün dilçiliyində geniş şəkildə işləndiyinə baxmayaraq, fonem yenə də mübahisəli olan mühüm problemlərdən biridir. Bu sahədə fonetikaya dair bir çox tədqiqat işləri aparılmışdır. Azərbaycan dilinin fonetikasında ilk tədqiqatlar Ə.Dəmirçizadəyə məxsusdur. O, fonemə belə tərif verir: "Fonemlər bu və ya digər dildə olan sözlərin maddi qabığını təşkil edən və bir sözü başqasından nitq vahidi kimi, yəni ictimai mənalı vahid kimi fərqləndirən səslərdir" [6, s.35]. Daha sonra müəllif fonemin əlamətdar xüsusiyyətlərini qeyd edir: "fonem dil sisteminin müstəqil bir həlqəsi", ...fonem sözdən ayrı deyil, ancaq söz daxilində ola bilən mənalı vahiddir, ...fonem dilin məna fərqi yarada bilən ən kiçik vahididir, ...fonem bir səsdən, iki, hətta üç səsdən ibarət ola bilər (monoftonq, diftonq, triftonq), sözdən, ifadədən və daha bir sıra şərtlərdən asılı olaraq bir fonem digər bir fonem çalarlığında işlənildikdə, yeni fonem formalaşması və ya fonem variantının formalaşması mümkündür, ...fonemlər silsiləli qarşılıqlı cütlüklərdən ibarət olur [6, s.36].

Azərbaycan dilinin fonoloji sisteminin öyrənilməsinə ciddi töhfələr verən F.Kazımovun fikrincə, "Azərbaycan dilində 15 sait fonem: /i, i:, e, e:, ə, ə:, ı, ü, ö, ö: u, u:, o, a, a:/ vardır. Onlardan 9-u qısa, 6-sı uzundur və sonunculara yalnız alınma sözlərdə rast gəlinir" [Кязимов: 1952, s. 300].

Azərbaycan dilinin fonoloji sisteminin tədqiqində A.Axundovun tədqiqatları xüsusi yer tutur. A.Axundovun son əsərində Azərbaycan dilinin fonoloji sistemində fonemlərin sayına münasibətdə mövqeyi sonda xeyli aydınlaşır. Məsələn, o yazır: "Azərbaycan dilinin fonoloji sistemində 9 sait fonem vardır - /i/,/e/, /u/, /o/, /ö/, /ə/, /a/, /ü/, /ı/. [10, s. 19].

F.Veysəlli uzun saitlərin fonematikliyini qəbul etmir: "Azərbaycan dilində uzun saitlər ya rudimentlər, ya da innovasiyalardır. Azərbaycan dilinin müasir inkişaf mərhələsində uzun saitlər yoxdur"[16, s. 30].

F.Y.Veysəlli N.S.Trubeskoyun *"fonem müəyyən səs quruluşuna xas olan fonoloji əlamətlərin məcmusudur"* tərifi ilə haqlı olaraq razılaşmır və əvəzində *"sözün tanınması və fərqləndirilməsində fərqləndirici əlamətlərlə yanaşı, inteqral əlamətlərin də nəzərə alınmasının"* vacibliyini qeyd edir [14, s. 83].

F.Veysəlli yazır ki, *"...fonem ifadə planının vahidi olduğundan onun mənası yoxdur"* [15, s. 201].

**Morfologiya** linqvistikada nitq hissələri və onların dəyişilmə qaydalarını öyrənir. Termin biologiyadan götürülüb, hal-hazırda da bu elmdə işlənməkdədir. Morfologiya termini dilçiliyə məşhur alman dilçisi, naturalizm dilçilik məktəbinin banisi A.Şlayxer tərəfindən gətirilib.

Morfologiya qaydalarına dilin daxili strukturlarını izah edən sözlər daxildir. Morfologiya sözlərin iç quruluşundakı dil faktlarına bağlı qaydaları öyrənir. Morfologiya qrammatik əsas iki formasından (sintaksis) biri olub, sözün formalarını öyrənir. Morfologiyanın əsas mövzusu nitq hissələridir. Morfologiyada sözlər nitq hissələri kimi öyrənilir, onların quruluşu və dəyişmə qaydalar araşdırılır.

Morfologiyaya dair aparılan tədqiqatlar göstərir ki, Azərbaycan dilinin qrammatikasına aid "Müasir Azərbaycan dili" əsərində (1954) "Morfologiya"ya 140 səhifə ayrılsa da, [8, s.11] onda "morfem" terminınə münasibət bildirilmir. M.Hüseynzadənin "Müasir Azərbaycan dili. Morfologiya" [9, s.11] əsərində də "morfem" termininin mənası açılmamışdır. Azərbaycan dilçiliyində söz strukturu hələ də "kök" və "şəkilçi" hissələrinə ayırd edilir. Bu ənənə A.Axundovun yaradıcılığında da davam etdirilir: "Morfemlər iki yerə bölünür - kök və şəkilçi morfemlər. Kök morfemlər qrammatik mənadan başqa, potensial halda olsa da, həm də leksik anlayışları ifadə edir. Şəkilçi morfemlər isə yalnız qrammatik anlayışlar bildirir" [4, s.280].

Morfemi ən kiçik mənalı vahid hesab edən Q.Kazımov kök morfemləri xüsusi fərqləndirir [10, s. 40].

F.Y.Veysəlli morfemi çoxşaxəli və çoxtərəfli vahid kimi səciyyə edir: "morfemin eyniliyi üçün eyni semantik məna və eyni fonetik forma olmalıdır" [Veysəlli: 2013, s.124].

Əsərdə morfemlərin bölgüsü də verilir: kök (leksik, müstəqil, avtosemantik və ya sərbəst) morfemlər və qeyri-kök və ya affikslər (qrammatik) morfemlər. F.Veysəlli kök morfemləri 4 qrupda verir: 1) dəyişməz kök morfemlər; 2) dəyişməz kök morfemlər+sıfır morfem; 3) dəyişən kök morfemlər+şəkilçi morfem; 4) dəyişən kök morfemlər+sıfır morfem [12, s. 124].

**Leksika** sözün lüğət tərkibini öyrənir.

Dilin əsas vahidlərindən biri sözdür. Dildəki sözlərin hamısı birlikdə dilin leksikasını, yəni lüğət tərkibini təşkil edir.

Leksikanı öyrənən dilçilik bölməsi leksikologiya adlanır. Leksikologiyada sözlərin mahiyyəti, onların formaca və məzmunca əmələ gətirdiyi qruplar, sözlərin mənşəyi və işlənmə dairəsi öyrənilir. Dilimizdəki sözlərin çoxunun həm leksik, həm də qrammatik mənası vardır. Sözün birbaşa ifadə etdiyi mənaya onun leksik mənası deyilir. Başqa sözlə desək, sözün leksik mənası onun məzmununu bildirməsi, hər hansı bir anlayışı ifadə etməsidir.

Leksikaya dair aparılan tədqiqatlar göstərir ki, S.Cəfərov "Müasir Azərbaycan dili. Leksika" (1970) əsərində sözün mənasına münasibət bildirərkən müəllif leksik və qrammatik mənaları fərqləndirir [5, s.17]. Əsərdə çoxmənalı sözlərdən danışarkən o haqlı olaraq yazır: "çoxmənalı sözlərdə onun daşıdığı mənalardan biri öz konkret ifadəsini ancaq mətnin daxilində tapır. Məsələn, /Ürəyimin yağı əridi//, /İşlərim yağ kimi gedir//, Qələm lap yağ kimi yazır//; /Oğlunun yolunu gözləməkdən gözünün kökü saraldı//, /Bulağın gözündən içdiyim su ürəyimi sərinlətdi//, /Yağçəkən maşının gözü tutuldu//. Dilin lüğət tərkibinin zənginləşməsi yollarından danışan S.Cəfərov bu amili yalnız sovet hakimiyyətinin qurulması ilə şərh edir. Halbuki dilin leksik qatının zənginləşməsi dildaxili və dilxarici amillərin birgə fəaliyyəti nəticəsində baş verir. Qeyd edək ki, müəllif burada konversiya hadisəsinə ümumiyyətlə toxunmur [5, s.17].

A.Axundov dilin leksik səviyyəsini digər səviyyələrdən fərqləndirən üç cəhəti qeyd edir: 1) leksik səviyyə açıq sistemdir: 2) leksik-semantik sistem dilin xarici strukturu, dil üslubları və nitq fəaliyyətinin müxtəlif kommunikativ sahələri ilə bilavasitə bağlıdır; 3) leksik-semantik kateqoriyalar müxtəlif və çoxlu semantik əsaslara görə müəyyənləşir [4, s.163-164]. O, frazeoloji vahidlərin 4 növünü qeyd edir: frazeoloji uyuşmalar, frazeoloji birləşmələr, frazeoloji qovuşmalar və frazeoloji ifadələr [4, s. 187].

**Sintaksis** dilin qrammatik quruluşu haqqında elm olub sintaktik vahidlər sistemini (söz birləşmələri, cümlələr, mürəkkəb sintaktik bütövlər) sintaktik vahidlərin qurulması və bağlanma vasitələrini öyrənir.

Sintaksis sözünün dilin sintaktik quruluşu mənası dedikdə, söz birləşmələrinin və cümlələrin quruluşu başa düşülür. Son dövrlərdə mətn dilçiliyinin yaranması ilə bağlı olaraq mətn də sintaksisdə öyrənilir. Dilin sintaktik quruluşu dedikdə söz birləşməsi, cümlə ilə yanaşı, mətnin quruluşu da bura daxildir. Mətn cümlələrin bir-biri ilə əlaqələnməsi ilə yaranır. Sintaksis termini dilin sintaktik quruluşundan bəhs edən elm mənası dedikdə isə dilin sintaktik quruluşunu öyrənən dilçilik şöbəsi nəzərdə tutulur. Qrammatikanın bir şöbəsi olan sintaksis isə sözlərin söz birləşməsi və cümlə, cümlələrin mətn şəklində əlaqələnməsi qaydalarından bəhs edən elmdir.

Sintaksis sahəsində aparılmış işlərin tədqiqi isə göstərir ki, Ə.Dəmirçizadənin dilimizin sintaktik quruluşunun tədqiqinə aid əsərləri orijinallığı ilə seçilir. Müəllif cümlənin məqsəd və intonasiyaya görə növlərini geniş şəkildə işləmiş və əsas prinsip kimi məqsədlə avazlanmanı birgə götürməyi təklif edir. O, ilk dəfə tabesiz və tabeli mürəkkəb cümlələrin oxşar və fərqli cəhətlərini nəzərdən keçirərək, budaq cümləri çevrilmiş və müstəqil cümlələr adı altında iki növə ayırmışdır [6, s.5].

“Müasir Azərbaycan dili. Sintaksis” əsərində sintaksisin obyekti kimi söz birləşməsi və cümlə götürülür. Cümlə söz birləşməsinin arasındakı fərqə münasibət bildirən müəlliflərin fikrincə, “cümlənin əsas əlamətləri onun predikativ keyfiyyətə malik olması (modallıq da daxil olmaqla) və cümlə intonasiyası ilə müşayiət edilməsi”dir [3, s. 6].

Azərbaycan dilində tabeli mürəkkəb cümlələri öyrənən Ə.Abdullayev onların komponentləri arasında formal və semantik aspektləri fərqləndirir: “baş cümlə öz qrammatik vəziyyətinə görə daha sərbəstdir və budaq cümləni özünə tabe edir. ...“budaq cümlə qrammatik cəhətdən baş cümlədən asılıdır, semantik cəhətdən belə asılılıq olmaya da bilər” [1, s.9]. Deməli, mürəkkəb cümlənin komponentləri arasında qarşılıqlı əlaqənin məhz formal, informativ aspektlərini müəyyənləşdirməyə ehtiyac vardır.

Azərbaycan dilçiliyində sintaksisə dair tədqiqatlar arasında K.Abdullayevin əsərləri xüsusi yer tutur. K.Abdullayev, “cümlə üzvünün əsas əlaməti onun funksional dəyərə malik olmasıdır” ideyasından çıxış edir. Onun fikrincə, “...bütün cümlə üzvləri ...Azərbaycan türk dili cümləsində funksional baxımdan eyni dəyərə malik deyildir” [2, s. 35]. K.Abdullayev də tamamlığı baş üzv hesab edir, ikinci dərəcəli üzvlərə yalnız təyin və zərfliyi daxil edir, zərfliyi təyinin bir növü kimi götürməyi məsləhət görür: “sırf dilçilik baxımından yanaşan zaman tamamlığı da cümlənin nəinki kommunikativ, həm də struktur biçimi üçün əvəzsiz komponent kimi ayırmaq mümkündür. Yəni mübtəda və xəbərlə yanaşı, bərabər hüquqla tamamlıq da cümlənin baş üzvləri sırasına daxil edilə bilər” [2, s. 36].

K.Abdullayev tabesiz mürəkkəb cümlənin komponentlərini müstəqil cümlələr hesab edir və “tabesiz mürəkkəb cümlə” adlandırılan dil vahidlərinin mətn sintaksisində öyrənilməsini düzgün hesab edir. Hətta Azərbaycan dilindəki /O acıqlı, qaradinməz adam hara, bu qədər incə hisslərin sahibi hara// tipli paralel tərkibli tabesiz mürəkkəb cümlələri də tabesiz mürəkkəb cümlə saymağı lazım bilməyən müəllif həmcins xəbərli cümlələrin də varlığını inkar edir: “Əgər hər hansı cümlədə iki tam hüquqlu müstəqil xəbər olarsa, biz, deməli, bir cümlə ilə deyil, iki cümlə ilə rastlaşmış oluruq” [2, s. 62].

Əsərin “Mətn sintaksisi” adlanan III hissəsində “dilçiliyin tədqiq obyekti olan mətnlə mətn dilçiliyinin obyekti olan mətni bir-birindən” fərqləndirmiş, sintaktik bütövü (mətni) “ümumi semantik və formal əlaqələrlə birləşən iki və daha artıq cümlənin birliyi” kimi qeyd etmiş, mətn və abzas məsələlərini ətraflı izah etmişdir.

Y.M.Seyidov sintaqm anlayışına münasibət bildirən ilk dilçilərimizdəndir. Lakin Y.M.Seyidov da sintaqmla bağlı fikirlərin icmalını verməklə və onun söz birləşməsi ilə fərqli cəhətlərini müəyyənləşdirməklə kifayətlənmişdir. Bununla belə, onun sintaqm və söz birləşməsi arasındakı fərqli cəhətləri açıb göstərməsi təqdirəlayiqdir [11, s. 89-90]. A.Axundov isə sintaqmın dilçilikdə üç mənada işlədildiyini qeyd edir: “ sintaqm fonetik vahid hesab olunur, ... müəyyən bir ibarənin üslubi üzvlənməsi nəticəsi mənasında işlənir. ...sintaktik vahid”dir [4, s. 154-155].

Sintaksisə dair tədqiqatlar arasında F.Y.Veysəllinin araşdırmaları da diqqəti cəlb edir. F.Veysəllinin fikrincə, “cümlə bizim ona verdiyimiz strukturdur” ...“cümlənin intonasiya konturu

sintaqm tərkibilə nizamlanır" ...intonasiya cümlədə "yeni ilə köhnənin qarşılaşmasını həyata keçirən dil vasitəsidir" [13, s. 252].

Azərbaycan dilinin fonoloji sisteminin bu və ya digər problemlərinin öyrənilməsində tədqiqatçılar arasında fikir ayrılığının olduğu müşahidə edilir. Bu cür fikir ayrılığına dilimizin fonem inventarının sayı, bu və ya digər səslərin fonematikliyi, habelə dilin fonem inventarının müəyyənləşdirilməsində tətbiq edilən meyarların fərqliliyini göstərmək olar.

Azərbaycan dilçiliyinə dair elmi-nəzəri mənbələrin təhlili bu sahədə ciddi dönüş sovetlər dövrünə təsadüf etdiyini göstərir. Dilçiliyin müxtəlif sahələrinə dair tədqiqatlar və elmi-metodik araşdırmalar Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra daha sistemli xarakter daşımağa başlamış, dilin bütün aspektləri - fonoloji, morfoloji, leksik, sintaktik sahələri üzrə elmi araşdırmaların sayı həm keyfiyyət, həm də kəmiyyət baxımdan yeni mərhələyə qədəm qoymuşdur. Bu zaman dünya dilçiliyində qabaqcıl mövqeləri tutmuş məktəblərin elmi-nəzəri müddəalarından istifadə edilir.

**Ədəbiyyat siyahısı**

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: Maarif, 1974, 415 s.
2. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 2017, 284 s.
3. Abdullayev Ə. Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə. Bakı: Maarif, 1972, s.6.
4. Ağamusa Axundov. Ümumi dilçilik, Bakı, "Şərq-Qərb", 2006, 280 s.
5. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif, 1970, 134 s.
6. Dəmirçizadə Ə. Müasir Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 472 s.
7. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Cümlə üzvləri. Bakı: Azərnəşr, 1963. 416 s.
8. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: ADU nəşriyyatı, 1954, s.11.
9. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, 358 s.
10. Kazımov Q.Ş. Seçilmiş əsərləri. VIII cild. Bakı: Nurlan, 2010, 544 s.
11. Seyidov Y.M. Əsərləri. 10 cilddə. I. cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, s. 89-90.
12. Veysəlli F.Y.Dilçiliyin əsasları. Studia Philologica VI. Bakı:Mütərcim, 2013, 308 s.
13. Veysəlli F.Y. Dil. Bakı: Təhsil NPM, 2007, 252 s.
14. Veysəlli, F.Y. Dilçiliyə giriş. Bakı: Mütərcim, 2017, 400 s.
15. Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatikası: fonemika/ morfemika. Bakı: Prestij çap evi. – 2014, 530 s.
16. Вейсалов Ф.Я. Спорные вопросы Азербайджанской фонологии (К постановке проблемы). Баку: 2002, с. 30.
17. Кязимов Ф. Система гласных фонем азербайджанского языка // Изв. АН СССР, ОЛЯ, 1952, т. XI, вып. 4, 304 s.

***Cumayeva Sədaqət***

***Azərbaycan dilçiliyinin müxtəlif istiqamətləri***

***Xülasə***

Məqalədə Azərbaycan dilçiliyinin dünya dilçiliyində mövqeyindən bəhs edilir. Azərbaycan dilçiliyinə dair elmi-nəzəri mənbələrin təhlili bu sahədə ciddi dönüş sovetlər dövrünə təsadüf etdiyini göstərir. Dilçiliyin müxtəlif sahələrinə dair tədqiqatlar və elmi-metodik araşdırmalar Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra daha sistemli xarakter daşımağa başlamış, dilin bütün aspektləri - fonoloji, morfoloji, leksik, sintaktik sahələri üzrə elmi araşdırmaların sayı həm keyfiyyət, həm də kəmiyyət baxımdan yeni mərhələyə qədəm qoymuşdur. Qeyd edək ki, Azərbaycan dilinin fonoloji sisteminin bu və ya digər problemlərinin öyrənilməsində tədqiqatçılar arasında fikir ayrılığının olduğu müşahidə edilir. Buna dilin fonem inventarının müəyyənləşdirilməsində tətbiq edilən meyarların fərqliliyini göstərmək olar.

***Sadagat Jumayeva***

***Different directions of Azerbaijani linguistics***

***Summary***

The article discusses the place of Azerbaijani linguistics in world linguistics. An analysis of scientific and theoretical sources on Azerbaijani linguistics shows that a serious turn in this area coincided with the Soviet era. Research and scientific and methodological research in various areas of linguistics began to be more systematic after the restoration of Azerbaijan's independence, and the number of scientific studies in all aspects of the language - phonological, morphological, lexical, syntactic areas - entered a new stage, both qualitatively and quantitatively. It should be noted that there are disagreements among researchers in the study of certain problems of the phonological system of the Azerbaijani language. This can be explained by the difference in the criteria used in determining the phonemic inventory of a language.

***Садагат Джумаева***

***Различные направления азербайджанского языкознания***

***Резюме***

В статье рассматривается место азербайджанского языкознания в мировом лингвистике. Анализ научных и теоретических источников по азербайджанскому языкознанию показывает, что серьезный поворот в этой области совпал с советской эпохой. Исследования и научно-методические исследования по различным областям языкознания стали носить более систематический характер после восстановления независимости Азербайджана, а количество научных исследований по всем аспектам языка - фонологической, морфологической, лексической, синтаксической областям - вступило в новую стадии как качественно, так и количественно. Следует отметить, что среди исследователей существуют разногласия в изучении тех или иных проблем фонологической системы азербайджанского языка. Это можно объяснить разницей в критериях, используемых при определении фонемного инвентаря языка.

***Çapa tövsiyə edən:*** ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***dosent G.Axundova***
***dosent L.Qurbanova***